ZƏFƏR gündəliyi
10 oktyabr 2020-ci il

# İlham ƏLİYEV: "Azərbaycan axıra qədər gedəcək"

Sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusunun "dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatı uğurla davam edib. Müharibənin 14-cü günü düşmənə sarsıdıcı zərbələr endirilib.

## Düşmənin 13 tankı, 15 artilleriya qurğusu məhv edilib

Azərbaycan Ordusunun hücum əməliyyatı nəticəsində düşmənin xeyli sayda canlı qüvvəsi, 13 tankı, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 6 ədəd D-20 və D-30 topu, 3 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 2 ədəd M55 "Zastava" zenit qurğusu, 2 radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri dəqiq atəşlə məhv edilib.

## Hadrut, Goranboy, Tərtər, Ağdam atəşə məruz qalıb

Düşmən Xocalı istiqamətindən Hadrutu yaylım atəşli reaktiv sistemlərdən intensiv atəşə tutub. Həmçinin Goranboy, Tərtər, Ağdam, Ağcabədi və Füzuli rayonlarının yaşayış məntəqələri düşmən tərəfdən atəşə məruz qalıb. Ordumuz Ermənistan silahlı qüvvələrinə qarşı adekvat tədbirlər görüb.

Düşmənin ağır döyüş texnikaları bölmələrimizin sərrast atəşi ilə məhv edilib.

## Məhv edilən 9K72 "Elbrus" raket kompleksinin qalıqları aşkarlanıb

Ermənistan ərazisindən Mingəçevir istiqamətində atılan, lakin Azərbaycan hava hücumundan müdafiə sistemləri tərəfindən müəyyənləşdirilib məhv edilən 9K72 "Elbrus" əməliyyat-taktiki raket kompleksinin vurulmasından sonra yerə dağılan qalıqları aşkarlanıb.

## Düşmən atəşkəs razılaşmasını pozub



Tərəflər arasında saat 12:00-da atəşkəs elan olunması barədə razılıq əldə edilməsinə baxmayaraq, Ermənistan ordusu cəbhənin Ağdərə-Tərtər və Füzuli-Cəbrayıl istiqamətlərində hücuma keçməyə cəhd göstərib. Eyni zamanda bir sıra yaşayış məntəqəmiz Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə məruz qalıb.

Düşmənin bütün hücum cəhdlərinin qarşısı bölmələrimiz tərəfindən uğurla alınıb. Ermənistan ordusuna qarşı adekvat cavab tədbirləri görülüb.

Atəşkəs rejimini pozan düşmənin zirehli texnikası, artilleriya bölməsi, həmçinin atəş nöqtələrinə çıxardığı ağır artilleriyası, döyüşə hazır vəziyyətə gətirilən zenit-raket kompleksləri dəqiq zərbələrlə məhv edilib.

## İlham ƏLİYEV: "Biz öz bəyanatlarımıza sadiqik"

Prezident İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibə verib. Dövlət başçısı tərəflər arasında atəşkəsin elan olunması məsələsinə aydınlıq gətirərək deyib: "Biz öz bəyanatlarımıza sadiqik, Azərbaycan öz üzərinə götürdüyü öhdəlikləri həmişə yerinə yetirən ölkədir. Danışıqlar aparılması üçün sabaha razılıq verilib. Buna görə hər şey ATƏT-in Minsk qrupunun fəaliyyətindən, onların iş qrafikindən asılıdır".

Prezident qətiyyətlə vurğulayıb ki, əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, onda siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Amma Azərbaycan axıra qədər gedəcək.

Ali Baş Komandan bir daha Ermənistan rəhbərliyinə səslənərək deyib ki, Azərbaycanla ultimatumlar, təhqirlər və şantaj dilində danışmaq olmaz. Paşinyan Azərbaycana 7 ultimatum təqdim edəndə, azərbaycanlıların hisslərini təhqir edəndə buna görə cəzalandırılmalı idi və bu gün Azərbaycan bunu reallaşdırır.

## Atəşkəsi pozan düşmənə sarsıdıcı zərbələr endirilib



Humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində hücum etməyə cəhd göstərib.

Düşmən günorta saatlarında Tuğ kəndi istiqamətindən Hadrut istiqamətinə, Aragül və Banazur istiqamətlərindən isə Cəbrayıl istiqamətinə hücum etməyə çalışıb.

Bölmələrimizin gördüyü qabaqlayıcı tədbirlər nəticəsində xeyli canlı qüvvə və döyüş texnikasını itirən düşmən geri çəkilməyə məcbur olub. Müdafiəni düzgün təşkil edən bölmələrimiz düşmənin irəliləməsinin qarşısını alıb, onu tələyə salaraq darmadağın edib. Döyüş toqquşması nəticəsində düşmənin 38 nəfər canlı qüvvəsi, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 7 ədəd topu və sursatla dolu 2 yük maşını məhv edilib.

Humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri Ağdamın kəndlərini və saat 22:30-dan başlayaraq Tərtər şəhərini artilleriya atəşinə tutub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

